Vətən üçün canından keçən QƏHRƏMAN

Şəhid leytenant İbrahim Mustafa oğlu Əliyevin anım gününün 5-ci ildönümü qeyd olunub.

Kəngərli rayonunun Qabıllı kəndində Vətən müharibəsində Şəhidlik zirvəsinə ucalmış leytenant İbrahim Mustafa oğlu Əliyevin şəhadətinin 5-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.

Şəhidin müqəddəs məzarı önündə təşkil olunmuş tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, şəhid anaları və şəhid ataları, Vətən müharibəsi iştirakçıları, polislər, hərbçilər və kənd sakinləri iştirak ediblər.

Anım tədbiri Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Dini İcmanın sədri tərəfindən Qurani-Kərimdən ayələr oxunub, şəhidlərin ruhuna dualar edilib.

Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edib. İcra başçısı öz çıxışına şəhid İbrahim Əliyevin keçdiyi şərəfli ömür yolunun xatırlanması ilə başlayıb, onun Vətənə, xalqa bağlılığını, misilsiz cəsarətini və qəhrəmanlığını vurğulayıb.

Başçı qeyd edib ki, İbrahim Əliyev kimi igid oğullarımız məhz müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfərin memarlarıdır. Şəhidlərimiz müqəddəs borclarını yerinə yetirərək Azərbaycanın ərazi bütövlüyünü bərpa ediblər.

"Bu tarixi Qələbə, İbrahim Əliyev başda olmaqla bütün şəhidlərimizin qanı və canı bahasına, həmçinin qazilərimizin fədakarlığı sayəsində əldə edilmişdir. Bu gün biz məhz onların sayəsində müstəqil və suveren ölkəmizdə rahat və əmin-amanlıq içində yaşayırıq", - deyə rayon rəhbəri bildirib.

Sonda Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə göstərdiyi yüksək diqqət və hərtərəfli qayğını xüsusi olaraq diqqətə çatdırıb.

Daha sonra anım tədbirində şəhid ataları, anaları və qazilər çıxış edərək, İbrahim Əliyev haqqında xatirələrini bölüşüblər, Vətən uğrunda şəhid olmaq zirvəsinin şərəfindən bəhs ediblər.

Məktəblilər şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş şeirlər söyləyiblər.

Sonda tədbir iştirakçıları Qabıllı kəndindəki şəhidlərin məzarlarını ziyarət edərək, onların üzərinə tər qərənfillər düzüb.

Əliyev İbrahim Mustafa oğlu 17 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikası Kəngərli rayonunun Qabıllı kəndində doğulub. 2014-cü ildə Naxçıvanda C.Naxçıvanski adına hərbi məktəbdən, 2018-ci ildə Bakıda AAHMdən məzun olub. Həmin ildən Goranboyun N saylı hərbi hissəsində tağım komandiri kimi xidmətə başlayıb. İbrahimin işinə bağlılığı, sevgisi onu Türkiyədə təhsil almağa qədər aparıb. O, 2019-cu ilin noyabr və 2020-ci ilin mart ayları arasında Ankarada "Kara Kuvvetleri İstihbarat Okulu"nda təhsil alaraq yüksək nəticə göstərib. Vətənə qayıtdıqdan sonra Bölük komandiri vəzifəsində xidmətini davam etdirib. Xidmət illərində hərbi hissə rəhbərliyi tərəfindən "təşəkkürnamə", "tərifnamə" ilə dəyərləndirilib. O, 3 bacının bir qardaşı, evin son beşiyi idi. Nişanlı idi. İlk gündən Vətən müharibəsinə kəşfiyyatçı olaraq yollanmış, müharibəyə öndə gedənlərdən biri olmuşdu. O, silah yoldaşları ilə ön cəbhədə irəliləyib, Gülüstan dərəsi-İncə çay istiqamətində düşmən postunu ələ keçiriblər. Sonradan mühasirəyə alınaraq snayperdən açılan atəş nəticəsində sentyabrın 29-da başından yaralanıb və şəhadətə yüksəlib. Onun cənazəsi dekabrın 5-də ailəsinə təhvil verilib, dekabrın 7-də doğma kəndi Qabıllıda torpağa tapşırılıb. İbrahimin cənazəsi şəhid olduqdan sonra düşmən tərəfindən götürülüb, hərbi vəsiqəsi sentyabrın 30-da ermənilər tərəfindən erməni televizisiyası və sosial şəbəkələrdə paylaşılıb.O, 26 sentyabrda nişanlısı, dostu, qohumları və valideynləri ilə əlaqə saxlayıb. Nişanlısına yazdığı son mesajla vidalaşaraq, onu çox sevdiyini deyib. Dostu Fəxriyə isə ehtiyatlı və möhkəm olmağını tapşırıb. Aşağı Ağcakənddə yaşadığı evin sahibinə "qapıya bayraq asın!" - deyərək sanki şəhid olacağının xəbərini əvvəlcədən vermişdi. Atasından halallıq istəyib, bəlkə son danışıqları olacağını bildirib. Elə də olub. Atasına "mən zəng vurana qədər anamı mənə zəng vurmağa qoyma!" - deyib.

Azərbaycan Prezidentinin sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib.

Ruhu şad olsun!